

Şurəddin Məmmədli
Filologiya elmləri doktoru, professor,
Gürcüstan Milli Akademiyasının həqiqi üzvü.

# SƏNƏT MÖHÜRÜ

## Borçalıda ustad aşıq Əmrahın yubileyi keçirildi.

Saz sözdən də əzəldir. Söz nəğmələşməzdən öncə telli sazın şah pərdələrində həlim-həzin havalar, havacatlar yaranıb, saz-saz, el-el dolaşıb. Bu anlamda Borçalımızın əsrlərdən üzü bəri fəxrlə daşıdığı saz beşiyi epitetində böyük hikmət, mətləblərə açar var. Soyumuzun ulu əcdadları bu epiteti şərəflə daşıyıblar, yaşadıblar və bugünkü borçalılar da ata yurdumuzun sazını, sözünü layiqincə yaşatmağa ən azı bir övlad olaraq borcludurlar. Bu torpağın Əmrah Dədə kimi azman bir sənətkarı yetirməsi də məntiqi nəticədir, məntiqi həqiqətdir.

1914-cü ildə Borçalının Kürüstü-Kəpənəkçi elatında dünyaya göz açıb, Borçalı çökəyinin aşağı aranı zonasının Axlı-Mahmudlu obasında yaşamış, əsasən Borçalının el məclislərində, el yığnaqlarında çalıb-çağırmış, dastan gecələri keçirmiş Aşıq Əmrah Gülməmmədova Dədə tapşırmasını, Dədə epitetini Borçalı elatının qədirbilən saz-söz aləmi, bütövlükdə türk dünyasının saz-söz xiridarları yaraşdırıblar. Həyatda Dədə öz çağında dədələşənlərə, yəni əcdadlaşanlara, sənətdə Dədə öz çağında klassikləşənlərə, hələ sağ ikən sənətsevərlərin qəlbində özünə heykəl ucaldanlara deyilər. Aşıq Əmrah Gülməmmədovun Dədə Əmrahlaşması belə bir məntiqi dəyər müstəvisindən keçib.

Dədəlik ucalığının da özünəməxsus meyarları mütləqdir. Hər hansı sənətçinin sənəti hansı meyarlara cavab verirsə, ona həmin "jestlərə" uyğun da epitet yaraşdırırlar: ustad, kamil ustad, dədə, el aşığı...

Əmrah Dədənin Dədə qiymətinin meyarları, təsdiqləri təkzibedilməz, gözgörəsi, açıq-aşkar həqiqətlərdir.

Bu meyarları əsas etibarilə aşağıdakı terminlərlə açıqlamaq olar:

1) Klassik saz ənənələrinə möhkəm bağlılıq və sədaqət;

2) Saz sənətini təkmilləşdirmək təşəbbüsü və qabiliyyəti;

3) Bədii yaradıcılıq zənginliyi;

4) Sazındakı-ifasındakı həlimlik;

5) Hərtərəfli, çoxşaxəli sənətkarlıq kamilliyi;

**Birinci baxımdan.** Klassik saz gələnəklərinə bağlılıq və sədaqət aşıqlığın, sənətkarlığın ilkin şərtidir. Bunu ən əvvəl aşığa ustadı aşılayır, təlqin edir. Bu mənada Əmrahın bəxti orda gətirib ki, ustadları atası Paşa Gülməmməd oğlu, məşhur aşıq Məsim və dövrün məşhur, kamil ustadı Aşıq Sadıq Sultanov olublar. Paşa kişinin evi Gəncəbasardan bəri Tovuz, Qazax, Göyçə, ən çox da Borçalı aşıqlarının yığnaq yeri olub. Bunun özü bir növ saz-söz məclisi, dərnəyi səciyyəsi daşıyıb. Burada Əmrah sazın-sözün sehrinə düşüb. Sözdə xəzinəli, hərəkətdə təmkinli, sazın xanı, aşıqlığın ensiklopediyası epitetlərinə malik Sadıq Sultanova şəyirdlik Əmrahın sənət yolunu müəyyənləşdirib, onu klassik aşıqlıq yollarına səmtləşdirib. Saz bilginlərinin qeyd etdikləri kimi, əsl kökənində çalan, ifa edən Əmrah Dədə olub. Onun çalğısında, ifa məharətində ağır havalar da, şux havalar da, cəngi havalar da... öz qəlibindən, yəni öz məcrasından və axarından, öz mənbəyindən və mənsəbindən çıxmayıb, əksinə, daha çox ləngərlilik qazanıb. Əslində, Əmrah Dədənin ifaları məhz sazın Borçalı ləngləri, ləmisi, formasının yaşaması deməkdir. Əmrah məhz özümlü ənənələrə malik Borçalı aşıq mühitinin, saz arealının tipik nümayəndəsidir, şahanə zirvəsidir!

**İkinci baxımdan.** Bu məqamda tam əminliklə deyirik ki, Dədə Əmrah Borçalı aşıq mühitinin özünəxas gələnəklərinin sadəcə daşıyıcısı, davam etdiricisi deyil, eləcə də bütövlükdə aşıqlıq sənətinin inkişaf etdiricisi, yeniləşdiricisidir. Əmrah Dədə azəri türkünün doğma musiqi aləti olan, onun tarixi, etnoqrafiyası, yaşam tərzi, mədəniyyəti, ədəbiyyatı, incəsənəti ilə qırılmaz şəkildə ilgili olan ana sazı təkmilləşdirə-təkmilləşdirə onun üçtellilik prinsipini qorumaqla, simləri 9-dan 12-yə, pərdələri 12-dən 16-ya çatdırıb. Bayaq Əmrah Dədənin klassik saz havalarını əsl öz qəlbində çaldığını vurğulayanda qeyd etdik ki, bu havalar, havacatlar onun ifasında daha da ləngərləşib, kamilləşib.



Bu ləngərləşmə, kamilləşmə məhz onun yaradıcı musiqi duyumunun bəhrəsi idi. Onun yeni xallarla, yeni çalarlarla ifa etdiyi saz havalarının özünəməxsusluq dərəcəsi o qədər xüsusiləşib ki, həmin havalar çox vaxt elə onun adına da bağlanıb, ayrıca hava olaraq qəbul edilib. Bu prizmadan yanaşanda, "Yurd yeri", "Urfani" ("İrfani") və başqa saz havaları yalnız Əmrah sazında, Əmrah barmaqlarında əslləşib, özəlləşib. Bu mənada o, təkcə ifaçı olmayıb, həm də bəstəçi statusunu qazanıb. Təsadüfi deyil ki, Əmrahın ifa repertuarını standart şəkildə qəbul edilmiş 72 saz havası deyil, 81 hava təşkil edib. Onun havalara naxış kimi əlavə etdiyi, yaraşdırdığı hər incə xal, hər əlvan gül bir tərəfdən onun sənətkarlıq qüdrətindən, bir tərəfdən də öz sənətkar zövqündən, şövqündən irəli gəlib.Özünəməxsusluq onun təkcə saz çalğısında deyildi, söz ifaçılığında da möhkəm şəkildə olub. Təsadüfi deyil ki, Əmrah Dədə bayatıları Borçalı ədəbi ənənələrinə uyğun olaraq kəsik bayatılar, yəni xoryatlar kimi (eləmi, əzizinəm sözlərini demədən) oxuyub.

**Üçüncü baxımdan.** Dədə Əmrahın həm lirik şer yaradıcılığı, həm də dastan yaradıcılığı zəngindir. Lirik qoşmaları həm ideya-məzmun, həm də bədii sənətkarlıq xüsusiyyətləri cəhətindən diqqəti çəkir. Onun qoşmalarının birində oxuyuruq:

*Aşıq Əmrah, meylin nədi düz, danış,*
*Tutan tutar, istər əlli, yüz danış,*
*Ariflərə bir qiymətli söz danış,*
*Təmiz qəlbin sənə bağlar görmüşəm.*

Dədə Əmrahın sinə yatırında 30-dan çox çap olunmamış qiymətli dastan varıydı. Məhz bədii yaradıcılıq, dastançılıq məharəti də onun kamil sənətkarlıq ustadlığının sübutlarından biriydi.

**Dördüncü baxımdan.** Əmrah Dədə həyatda, yaşayışda olduqca sadə, mehriban, səmimi, söhbətcil adam olduğu kimi, bu xasiyyət onun sənətinə də sirayət etmişdi. Onun çalğısında, oxumasında son dərəcə həlimlik, yanğı, sadəlik hiss olunur. Məhz bu sadəlikdə klassiklik onun özünəməxsusluğunun üstün cəhətlərindən idi.

**Beşinci baxımdan.** Bu parametrin təsdiqlərinə yuxarıdakı məqamlardan əlavə, onun musiqi – ifa – söz yaradıcılığı – söz bəstəçiliyi – aktyorluq – vokalçılıq vəhdəti də şamildir. Bu cəhətlər hələ çox-çox bundan sonralar neçə-neçə aşıqlar nəslinə ibrət, örnək olacaq.

Bütün bunlar Dədə Əmrahın sənətkar fenomenliyidir, sənət möhürüdür. Görkəmli xalq şairimiz Səməd Vurğun hələ Əmrahın gəncliyində onunla ilk görüşdəcə: "Səndə əsl sənətkar barmaqları var" – demişdi!